İPƏK YOLU, No.3, 2022, səh.76-83

# UİNSTON S. ÇÖRÇİLLİN "İKİNCİ DÜNYA MÜHARİBƏSİ" TARİXİ MEMUARINDA GERÇƏKLİKLƏRİN BƏDİİ HƏLLİ

**Türkanə İbrahimova**

Qərbi Kaspi Universiteti, Bakı, Azərbaycan
e-mail: ibrahimovaturkana.86@gmail.com

**Xülasə.** Məqalədə Böyük Britaniyanın görkəmli dövlət xadimi Uinston S. Çörçillin "İkinci Dünya müharibəsi" adlı tarixi memuarında tarixi gerçəkliklərə münasibəti və sülhsevərlik missiyası təhlil edilir. Məqalədə Uinston S. Çörçillin sülh uğrunda, Böyük Britaniyanın nasizmdən və faşizmdən qorunması ilə bağlı gördüyü tədbirləri tarixi reallıqlar zəminində memuarlardan gətirilmiş nümunələrlə izah edilir.

**Açar sözlər:** İkinci Dünya müharibəsi, Uinston S. Çörçill, I.V. Stalin, Ruzvelt, Adolf Hitler, Tehran konfransı.

**ARTISTIC SOLUTION OF THE FACTS IN WINSTON S. CHURCHILL'S HISTORICAL MEMOIR "WORLD WAR II"**

**Turkana Ibrahimova**
*Western Caspian University, Baku, Azerbaijan*

**Abstract.** The paper analyzes the attitude of the prominent British political leader Winston S. Churchill to the historical facts and peace-loving mission in his historical memoir "The Second World War". Winston S. Churchill's measures for peace and protection of Great Britain from nazism and fascism are explained on the basis of the historical realities with examples from memoirs.
**Keywords**: World War II, Winston S. Churchill, I.V. Stalin, Roosevelt, Adolf Hitler, Tehran conference.

**ХУДОЖЕСТВЕННОЕ РАЗРЕШЕНИЕ ФАКТОВ В ИСТОРИЧЕСКИХ МЕМУАРАХ УИНСТОНА С. ЧЕРЧИЛЛЯ "ВТОРАЯ МИРОВАЯ ВОЙНА"**

**Туркана Ибрагимова**
*Западно-Каспийский университет, Баку, Азербайджан*

**Резюме**. В статье анализируется отношение видного британского государственного деятеля Уинстона С. Черчилля в его мемуаре «Вторая мировая война» к историческим реалиям и миролюбивой миссии. На основе исторических реалий с примерами из мемуара объясняются меры Уинстона С. Черчилля для мира и защите Великобритании от нацизма и фашизма.
**Ключевые слова:** Вторая мировая война, Уинстон С. Черчилль, И.В. Сталин, Рузвельт, Адольф Гитлер, Тегеранская конференция.

## 1. Giriş

Tarixi - ədəbi memuarlarında Uinston S. Çörçillin əsas məqsədi dağıdıcı müharibəyə son qoymaq üçün Adolf Hitleri, Hitlerizmi və Nasist Almaniyasını məhv etmək, alman xalqının azad inkişafını təmin etmək idi. Sülhməramlı ədibin İtaliyada Mussolininin faşist rejiminin devrilməsini sevinclə qarşılaması memuarlarda xüsusi vurğulanmışdır.

Ədibin sülhsevərlik missiyası memuarların səhifələrində tam aydınlığı ilə müharibələrin məqsədlərinə, xüsusilə Adolf Hitlerin işğalçılıq siyasətinə və planla- rına mühakimələri fonunda ədəbi-bədii ifadəsini tapmışdır. Hitlerin məqsədlərini dərin nifrət hissi ilə qarşılayan ədib yazırdı: *"Alman xalqı bizim nəslin dövründə iki dəfə, atalarımızın dövründən bəri üç dəfə dünyanı təcavüzkar müharibələr girdabına sürükləyibdir. O, azadlığa dəyər vermir, başqa ölkələrdə azadlığı görmək belə istəmir. Lakin biz xalqlarla müharibə*

*aparmırıq. Biz tiranlığa qarşı müharibə aparırıq və özümüzü ölümün caynaqlarından qoruyuruq"* [5, c.1, s.247]. Bu açıqlama Uinston S. Çörçillin yüksək siyasi və sülh ideyalarından xəbər verir.

Müharibələrə nifrət, millətləri və xalqları dostluğa, birliyə çağırış ruhunu özündə ehtiva edən çıxışlarını da ədib memuarlarının səhifələrinə daxil etmişdir. ABŞ-ın Harvard Universitetində bu ruhlu sıxışlarından birini memuarlarının 5-ci cildinə daxil edən ədib qeyd edirdi ki: *"...Amerika gənclərinə, İngiltərə* gənclərinə üz tutaraq deyirəm: *"sən dayana bilməzsən". Hazırda dayanmaq mümkün deyidirl. Hərəkət etməliyik. İrəli. Ya dünya anarxiyası, ya da dünya nizamı qalib gələcəkdir. Qanunlar, dil, ədəbiyyat çox vacib amillərdir. Yaxşılıq və ədəb haqqında ümumi anlayışlar, xüsusilə zəif və kasıblara bərabər imkanlar vermək meyli, kəskin qərəzsiz ədalət hissi və hər şeydən əvvəl şəxsi azadlığa sadiqlik - həyatın əsas amili olmalıdır"* [7, c.5, s. 510].

## 2. "İkinci Dünya Müharibəsi" tarixi memuarı

Zamanın qaçılmaz hadisələri zəminində Uinston S. Çörçilli yüksək bədii təxəyyüllü ədib kimi memuarlarında tarixi faktların ideya-bədii həqiqətinin orijinal vəhdətini yaratmışdır. Bütün bunlar yalnız ədəbiyyat tarixçiləri üçün deyil, həm də tarixin tarixçiləri üçün müharibənin açılmamış səhifələrini gerçəklik güzgüsündə görmək üçün mühüm əhəmiyyət kəsb edir. Siyasətçi – yazıçının Siciliyanın işğalında rol oynamış hərbi texnika və heyətin real ədəbi təsviri tarix kitablarının səhifələrinə düşməyən faktlarla zəngindir. Bu acınacaqlı hadisənin bədii təsvirini yazıçı aşağıdakı kimi oxucusuna təqdim edirdi: "*Siciliyanın işğalı iyulun 10-da baş verdi. Messina avqustun 16-da işğal edildi. Ada 38 gündə ələ keçirildi. Siciliyanın sahil xətti 600 mil uzunluğundadır, sahəs isəi 10.000 kvadrat mildir. Ada beton həb qutuları və tikanlı məftillərlə möhkəmləndirilmişdir. Ox qarnizonu: 9 italyan diviziyası, 4 alman bölməsi, cəmi 13 diviziya; qoşunların ümumi sayı: italyanlar - 315 min, almanlar - 90 mindir, cəmi 405 min əsgərdir. Qüvvələrimiz: hava-desant diviziyası da daxil olmaqla 6 diviziyadan ibarət 7-ci ordu, hava-desant və zirehli briqadalar da daxil olmaqla 7 diviziyadan ibarət 8-ci ordu; cəmi 13 müttəfiq bölmə ...*"[7, c. 5, s. 32 ].

İtaliyada Mussolinin hakimiyyətinin devrilməsindən sonra İtaliyanın öz müqqəddəratını təyin etməsi ilə bağlı özünün birbaşa müəllifi olduğu "Bəyannamə"sində ədib bəşəriyyətə dövrünün gerçəkliklərinin gələcək nəsillərə çatdırılması missiyasını yerinə yetirmişdir. Bəyannamədən oxuyuruq: "Böyük Britaniya, ABŞ və Sovet İttifaqı hökumətləri, marşal Badoqlionun bəyan etdiyi kimi, İtaliya Kral Hökumətinin mövqeyini tanıyır və İtaliya xalqının və silahlı qüvvələrinin birgə döyüşən tərəf kimi fəal əməkdaşlığını qəbul edir. Sentyabrın 8-dən sonra baş verən hərbi hadisələr və almanların italyan əhalisinə qarşı qaba rəftarı İtaliyanın Almaniyaya müharibə elan etməsi ilə nəticələnən faktiki olaraq İtaliyanı birgə döyüşən dövlətə çevirdi və Amerika, Böyük Britaniya və Sovet hökuməti onlarla əməkdaşlığını davam etdirəcəkdir" [7, c.5, s.43-44 ].

Memuarların üçüncü kitabının "İtaliya üzərində qələbə" adlı hissəsinin "Hitlerin gizli silahı" fəslində Uinston S. Çörçill yazıçılıq fəhmini göstərməklə yanaşı səbrli, uzaqgörən, təmkinli siyasətçi və dövlət xadimi olduğunu olduğunu əsaslı şəkildə təsdiq etmişdir.Fəslin məzmunundan məlum olur ki, ingilis kəşfiyyatı Adolf Hitlerin Londona endirəcəyi ağır raket zərbəsinin şifrəsini ələ keçirir. Lakin uzaqgörən müəllif-dövlət xadimi Uinston S. Çörçill bu barədə hərbi komandanlığa Adolf Hitlerin gələcək planlarının qarşısının alınması üçün heç bir qarşılıqlı tədbirin görülməməsini tapşırır. Lakin şəhərin (Londonun) qədim muzey eksponatlarının ziyan görməməsi üçün vacib əşyalar gözlənilən təhlükədən zərər çəkməməsi üçün onların çıxarılması əmri verir.

Adolf Hitler tərəfindən hazırlanan bu müdhiş hadisəsinin törədilməsinə gedən bu yolda ədib memuarlarının sözügedən fəslində qeyd edirdi ki, "*müharibədən bir neçə il əvvəl almanlar raket və mərmilər qurmağa başladılar və bu iş üçün Baltik dənizi sahilində - Peenemündedə təcrübə stansiyası inşa etdilər. Bu fəaliyyət təbii ki, ciddi şəkildə gizli saxlanılırdı. Lakin onlar bunu gizlədə bilmədilər və artıq 1939-cu ilin payızında kəşfiyyat hesabatlarımızda müxtəlif növ uzaqmənzilli silahlara istinadlar görünməyə başladı. Müharibənin ilk illərində biz müxtəlif mənbələrdən bu mövzuya dair şayiələr və çox vaxt ən ziddiyyətli məlumat alırdıq. 1943-cü ilin yazında məsələyə qərargah rəisləri tərəfindən baxıldı. Qərargah rəisləri faktın doğruluğunun təsdiqi və qarşısının alınması müəyyənləşdirdi. Bu vacib araşdırma kəyfiyyatçı Dunkcan Sandaysa (Britaniya siyasətçisi və dövlət xadimi) həvalə edildi*" [7, c.5. s. 133-134]. İstedadlı yazıçı yüksək bəddi əksetdirmə yolu ilə kəşfiyyatçı Sandaysın həyat yolunu oxucusuna təqdim edərək yazır: "*Sandays müharibənin ilk günlərində Norveçdəki zenit bölməsində xidmət edirdi. Daha sonra o, birinci eksperimental raket alayına komandirlik edərkən avtomobil qəzasına düşüb hər iki ayağından xəsarət almişdı. O, 1941-ci ilin iyulunda Hərbi Nazirliyin maliyyə katibi, sonra parlamentin hərbi təchizat nazirinin katibi kimi hökumət qulluğuna daxil olmuşdu. Bu vəzifələrin hər ikisində o, silah növlərinin xarakteristikasını mükəmməl mənimsəmişdi və bu sahədə işinə məsuliyyət daşıyırdı. O, mənim qaynım olduğu üçün, özüm ona bu işi təklif etməsəm də, Baş Qərargah rəislərinin ona belə mühüm bir işi həvalə etməsinə çox sevindim*" [7, c.5, s.133]. Sandaysın təqdim etdiyi kəşfiyyat məlumatlarında Peenemündenin stansiyalarının yaxınlığında böyük, 90 - 130 kilometrlik məsafəyə ağır zərbə endirəcək raketlərin olduğu aşkarlanmışdır. Bununla əlaqədar olaraq, Cənub - Şərqi İngiltərədəki selektor radar stansiyalarına raketlərin buraxılışını izləmək üçün xüsusi tapşırıqlar verilmişdi. Almanların duyuq salınmaması üçün sakinlərin Londondan kütləvi təxliyəsi nəzərdə tutulmadı, lakin Daxili İşlər Nazirliyi gündə 10. 000 nəfəri şəhərdən çıxarmağı planlaşdıraraq, 100.000 nəfəri - məktəbliləri və hamilə qadınları Morrison bomba sığınacağında yerləşdirilməsini təmin etmişdi. Memuarlarda ədibin məlumatlarında Adolf Hitlerin Londonun bombalanması əməliyyatına qarşı İngiltərə hökuməti (Hökumətin rəhbəri Uinston S. Şörçill özü idi – T.İ) hərbi tədbirlərin görülməsini planlaşdırmasa da, lord Şervell

tərəfindən ağırlığı 10-20 ton olan raketlər istehsal ediləcəyi təqdirdə belə, bu əməliyyat məqbul sayılmamışdır. Çünki ölkədə bu ağırlıqda raketi daşıyacaq təyyarəyə ehtiyac var idi. Həmin dövrdə Şervell hökumətin baş xəzinədarı və Uinston S. Çörçillin elmi məsələlər üzrə şəxsi müşaviri işləmişdir. Sonralar o, Britaniyada atom bombasının istehsalı sənayesində yaxından iştirak etmişdir.

Memorist almanların Şərq cəbhəsində iki ay ərzində baş verən üç möhtəşəm döyüşdə - Kursk, Oryol və Xarkovda məğlubiyyətini ədəbi - bədii boyalarla əks etdirmişdir. Müəllifin təsvirinə görə, baş verən hadisələrin reallığı zəminində ruslar həm havada, həm də quruda üstünlük təşkil edirdi. Ədib Şərq cəbhəsində almanların ruslara qarşı 6 min təyyarə çıxardığını, rus təyyarəçilərinin qəhrəmancasına apardığı hava döyüşlərini tarixi məzmunlu roman səciyyəsində oxucuya təqdim edir. Sovet tarixşünaslığı Uinston S. Çörçilli nə qədər maskalanmış burjua təmsilçisi kimi qələmə verməyə cəhd göstərsə də, memuarlarda irəli sürülən ideya və siyasi liderlərə olan obyektiv yanaşma bu fikirləri alt-üst edir. 1971-ci ildə sovet ideologiyasının tüğyan etdiyi bir zamanda sovet tarixçisi I.B. Stepanov Uinston S. Çörçillin bəşəri duyğulara malik bir siyasi xadim kimi hələ gəncliyində ingilis imperializminin müstəmləkəçilik müharibələrində iştirak edərək bu siyasəti pisləyən və qələmə alan bir ədib kimi təqdir edərək yazırdı: *" İngilis-bur müharibəsinin şahidlərindən biri hələ o zaman gənc hərbi müxbir olan Uinston S. Çörçill olmuşdur. Gələcək Baş nazir XIX əsrin 80-90-cı illərində Böyük Britaniyanın bütün iri hərbi münaqişələrində iştirak edərək hər müharibəyə dair xatirələrini yazmışdır. 1962-ci ildə onlar bütöv məcmuə şəklində nəşr olunmuşdur. Həmçinin Uinston S. Çörçill bur əsirliyindən qaçmasına dair ayrıca kitab yazmışdır"* [4, s.10]. Bu yazışmalar və görüşlər fonunda Uinston S. Çörçillin memuarlarında tarixin aparıcı liderlərindən biri olmuş İ.V. Stalinin də parlaq obrazı yaradılmışdır. Ədibin sosializmə, SSRİ-də tüğyan edən kommunist ideologiyasına nifrətinin dərəcəsindən, bu ideologiyanın faşizmə bərabər tutulmasından asılı olmayaraq, siyasi lider kimi II Dünya müharibəsinin taleyində zəkası ilə həlledici rol oynamış İ.V. Stalinə rəğbətini ifadə edərək onun hərbi nüfuzunu təqdir etmişdir. Müəllif hələ Tehran, Krım və Potsdam konfransından öncə, sovet diplomatları ilə görüşlərində bu tarixi şəxsiyyətin sərkərdəlik qüdrətinə pərəstiş etdiyini aşağıdakı kimi təqdim etmişdi: *"Rusiya üçün böyük xoşbəxtlik idi ki, çətin sınaqlar illərində Rusiyaya dahi və sarsılmaz sərkərdə İ.V.Stalin rəhbərlik edirdi. Stalin qeyri-adi enerjili, yüksək erudisiyaya və əyilməz iradəyə malik, kəskin, sərt, həm əməldə, həm də söhbətlərində amansız bir insan idi. Onun insanlara təsiri qarşısıalınmaz idi. O, Yalta konfransının zalına daxil olanda hamımız, sanki əmr edirmiş kimi, ayağa qalxdıq və qəribə də olsa, nədənsə əlimizi yana sallayıb müntəzir dayandıq. O, düşmənini öz əli ilə məhv edən, açıq - aşkar imperialist adlandırdığı bizi imperialistlərə qarşı mübarizəyə qalxmağa məcbur edən bir insan idi. Stalin Rusiyanı aqrar ölkə kimi qəbul edərək, onu atom silahı ilə təchiz etdi. Onun haqqında nə desələr də, tarix və xalqlar belə insanları unutmur*. Memuarların səhifələrində Uinston S. Çörçill və İ.V. Stalin münasibətləri rus tədqiqatçısı V. R. Şestakovun da diqqətindən yayınmamış, o, bu iki siyasi liderin münasibətlərinin tarixi köklərini və siyasi

məqsədlərini araşdıraraq yazırdı: "*1942-ci ildən etibarən Çörçilin Sovet İttifaqına münasibətinin yeni dövrü başlayır. O, son 20 ildə bütün siyasi proqramına yenidən baxır və ənənəvi olaraq elan etdiyi antisovetizmdən əl çəkir"* [8, s.45]. Alim xüsusilə Uinston S. Çörçilllə Stalin arasında dörd il davam edən şəxsi münasibətlərə də diqqət yetirir. Memuarlara istinad edən V.R. Şestakov yazırdı: "*Bu müddət ərzində Uinston S. Çörçill iki dəfə (1942-ci ilin avqustunda və 1944-cü ilin oktyabrında) Moskvaya səfər etdi. Bundan əlavə, Tehran (noyabr-dekabr 1943) və Yalta (fevral 1945) konfranslarında görüşdü. Uinston S. Çörçillə Stalin nəinki görüşürdülər, hətta daimi yazışırdılar. Şəxsi münasibətlərin qurulmasında ilk addım 1940-cı ilin iyununda Çörçillin Stalinə yazdığı məktub oldu. İkinci məktubda alman qoşunlarının Polşanın cənubunda cəmləşməsi və SSRİ-yə gözlənilən hücum barədə xəbərdarlıq edirdi. Stalin birinci məktuba cavab verdi, ikinci məktubu isə görməməzliyə vurdu. 1942-ci il mayın 26-da Londonda 20 il müddətinə İngiltərə-Sovetİttifaqı müqaviləsi imzalandı. Bu müqavilə Uinston S. Çörçilllə Stalin arasında şəxsi görüşlərə yol açdı"* [8, s.48]. Müəllif həmçinin qeydlərində dünyanın iki tanınmış siyasi liderinin obrazını səciyyələndirərkən onların bir-birinə olan inam hissinin səciyyəvi cəhətlərini qeyd edərkən memuarlardan istinadlar verməyi unutmamışdır. O yazır: *" Uinston S. Çörçill bir centlmen kimi oyunun qaydalarını bilirdi və tərəfdaşına güvənirdi", "Stalin bir diktator kimi heç kimə, xüsusən də Çörçillə etibar etmirdi. Eyni zamanda, Çörçil, Stalinin ikili mövqeyindən xəbərdar idi. 1943-cü ildə söyləyirdi ki, guya iki Stalin vardır: "Biri mənə mehriban yanaşır, ikinci Stalin isə tutqun şəxsiyyətdir*" [8, s. 53-57]. V.R. Şestakovun qeydlərinə müraciətimiz yalnız iki lider arasındakı münasibətlərin aydınlaşdırılması deyil, eləcə də Uinston S. Çörçillin memuarlarının tarixlə bədiiliyin vəhdətinin misilsiz rolu olduğunun müəyyənləşdirilməsidir. Bu baxımdan Uinston S. Çörçillin bir ədib və tarixçi kimi fəaliyyətini nəzərə alan alim qeyd edir ki, *"Çörçill özü əsərlərinin memuar (xatirə) və hadisələrin iştirakçısı olduğu nöqteyi - nəzərindən yazıldığını vurğulayır. Düzdür, eyni zamanda Uinston S. Çörçill ad və titulları qeyd edib xarakteristikasını verərkəndəqiq olmağa çalışırdı. Bu mənada Uinston S. Çörçillin kitabları akademik tarixlə bədii ədəbiyyat arasında bir şeydir* [8, s. 59].

Uinston S. Çörçillin Stalinə olan münasibətinin və xarakterinin siyasi və bədii ölçüləri II Dünya müharibəsinin hərbi liderlərindən olan Sover İttifaqı Marşalı Q.K. Jukovun xatirələrində də yer almışdır. O, Potsdam konfransında Çörçillə bağlı siyasi görüşlərini ümumiləşdirərək yazırdı: "Uinston S. Çörçillə mən Potsdam konfransın -dan bir il öncə Moskvada görüşmüşdüm. Qəbul zamanı hiss edirdim ki, o, mənə xüsusi diqqət yetirir və mənə xüsusi döyüşlər haqqında suallar verirdi. Potsdamda da belə olmuşdu. Potsdama gəlişinə qədər o, özünün malikanəsində görüş təşkil etmişdi. Görüşdə Sovet İttifaqından İ.V. Stalin, V.M. Molotov, A.İ. Antonov və mən, ABŞ – ın prezidenti Harri S. Trumen, Xarici Məsələlər Üzrə Dövlət Katibi Ceyms Birnes, Ali Baş Qərargah rəisi, ordu generalı Corc Katlett Marşall, Böyük Britaniyadan isə feldmarşall X.Aleksander, qərargah rəisi feldmarşal

Aden Bruk və başqaları dəvət olunmuşdu. Qeyd etməyi vacib bilirəm ki, Uinston S. Çörçill İ.V. Stalinə böyük hörmət və ehtiramla yanaşırdı. Öz növbəsində İ.V. Stalin də Çörçillə qarşı çox ciddi davranış nümayiş etdirir və onun suallarını konkret və məntiqlə cavablandırırdı... Konfransın gedişatında söz Sovet İttifaqının Ali Baş Komandanı İ.V. Stalinə veriləndə o, Uinston S. Çörçillin faşizm üzərindəki qələbədə böyük tarixi xidmətlərini qiymətləndirərək qeyd etdi ki, bu tarixi şəxsiyyət Britaniyanın ağır hərbi şəraitində ölkənin Faşist Almaniyasına qarşı mübarizəsinin bütün ağırlığını öz çiyinlərinə götürərək qarşısına qoyduğu böyük vəzifələri layiqincə yerinə yetirdi" [3, s. 317-318].

Uinston S. Çörçillin "İkinci Dünya müharibəsi" tarixi ədəbi-sənədli salnaməsinin məzmununa diqqət edən oxucu Uinston S. Çörçillin səbr dünyasının zənginliyi ilə də tanış olur. Belə ki, ədib salnamənin heç bir səhifəsində onun vətən qarşısındakı xidmətlərinin əvəzində müxalifi K. Ettlinin ona etdiyi xəyanətdən söhbət açmır. Tarixin bu xəyanət lövhəsi münaqişə və gərginliyi sevməyən təvazökar ədibin – Unston S. Çörçillin qeydlərindən kənarda qalaraq açıqlanmır. Müharibə gerçək- liyini bədii-tarixi səpkidə müasir oxucuya çatdıran marşal Q.K. Jukovun qeydlərində bu tarixi ədalətsizlik aşağıdakı kimi ümumiləşdirilmişdir: *"...iyul ayının 28-də Potsdam konfransında İngiltərənin baş naziri postuna Uinston S. Çörçillin əvəzinə təyin olunmuş, Leyboristlər Partiyasının lideri K. Ettlinin rəhbərlik etdiyi münayəndə heyəti iştirak edir"* [3, s. 318]. Tarixi həqiqət isə belədir ki, Uinston S. Çörçill Potstamda olarkən, onun 1942-ci ildə Hitler Almaniyasının Londona endirəcəyi raket zərbəsinin gizli şifrələrinin əldə edilməsi olmuşdur. Ölkənin faşizmin törədəcəyi daha böyük faciələrdən qorumaq üçün tədbirlərin görülməməsinin hakimiyyət hərisi olan K.Ettlinin əlində onu hakimiyyətdən salmaq, vətənə xəyanətdə günahlandırmaq bəhanə olmuş və siyasətçi - memorist konfransda iştirak etdiyi müddətdə hakimiyyət- dən uzaqlaşdırılmışdır.

Memuarların 3-cü cildinin "Sovet müttəfiqimiz" adlı fəslində Türkiyənin siyasi məqsədlər naminə müharibəyə cəlb edilməsindən bəhs olunmuşdur. Türkiyənin müharibəyə cəlb edilməsi və Egeydən Çanaqqala boğazına çıxışın açılması məsələsi gündəmə gətirilmişdir. Memoristin fikrincə, *"Türkiyə müharibəyə girib, ingilisləri hava bazaları ilə təmin edən kimi, onlar ( ingilislər) nisbətən kiçik qüvvələrlə, təxminən iki-üç diviziya ilə Egey dənizindəki adaları, üstəlik, artıq bu müharibədə olan təyyarələri ələ keçirə bilərdi"* [6, c.3, s. 193]. Uinston S. Çörçill 1941-ci ilin yanvar ayının 31-də Türkiyənin xarici işlər naziri İsmət İnönüyə göndərdiyi məktubunda müharibənin uzadılmaması, Almaniyanın işğalçılıq planlarının məhdudlaşdırılması məqsədilə Türkiyənin müharibəyə qoşulmasını xahiş etmişdir. Ədibin amansız müharibəyə və faşizmin işğalçılıq mədsədlərinə son qoyulması məqsədilə memuar məlumatına görə, Yaxın Şərqdə Almaniyanın Balkanlara artan təhlükəsi ABŞ-ın diqqətini bu bölgəyə yönəltmiş, prezident Franklin D. Ruzvelt Balkan dövlətlərini ruhlandırmaq üçün 1941-ci ilin fevral ayının 1-də polkovnik Uilyam Donovanı ora ezamiyyətə göndərmişdir. Sülhsevər ədibin qeydlərinə görə, Balkanlara, xüsusilə Bolqarıstana ABŞ-ın mühüm əhəmiyyət verilməsi bu ölkənin quru yollarının strateji

əhəmiyyət daşıması olmuşdur. Memuarlarda diqqəti cəlb edən əsas məqamlardan biri sovet - Türkiyə münasibətlərinin memoristin idealları üzrə qurulmasıdır.

Tarixi mənbələrin məlumatına görə, 1942-ci ilin mayında V.Molotova verdiyi müsahibəsində Uinston S. Çörçill qeyd etmişdir ki, Almaniya Bakıdan keçməklə Qafqaza zərbə endirə bilər [9, s. 104].

**Nəticə**. Uinston S. Çörçillin memuarlarında Qafqaz, xüsusilə Bakı məsələsinə xüsusi yer ayrılmışdır. Sovet Ordusunun Qafqazda almanların qarşısını ala bilməsi məsələsi ədibi daha çox düşündürmüş, İ.V. Stalinlə söhbətlərində o, bu problemə xüsusi önəm vermişdir. Almanlar tərəfindən Xəzər dənizinin və Bakı neftinin ələ keçirilməsi Uinston S. Çörçilli çox narahat etmişdir. Əbəs deyildir ki, o, aforizmlərində də Bakıya, Bakı neftinə xüsusi dəyər verərək yazırdı: "Bakı kraliçadırsa, neft onun taxt - tacıdır". Tarixçi Çapay Sultanov " Bakı nefti dünya şahmat taxtasında" adlı tarixi əsərində tarixi həqiqətlərdən bəhs edərək Uinston Çörçillin işğalçı kimi Adolf Hitlerə və polad iradəli İ.V. Stalinə münasibətini açıqlayaraq qeyd edirdi ki: *"SSRI-yə münasibət məsələsində Çörçillin mövqeyi daha da sərt və kəskin idi. Hitler SSRI-yə hücum etdikdən sonra İngiltərə özünə gələn kimi Uinston Çörçill artıq 1943-cü ildə yüksək rütbəli ingilis zabitlərinin Tripolidə keçirilən məxfi müşavirəsində demişdir: "Mən alman ordusunu qəbirdə, Rusiyanı isə cərrahiyyə əməliyyatı masasında görmək istərdim"* [1, s. 29].

Uinston S. Çörçillin memuarlarının 5-ci cildinin "Tehrandan Romaya" adlı ikinci hissəsinin yüsək sənətkarlıqla yazılan fəsillərindən olan ikinci "Tehran: konfransın açılışı" adlı fəsli yalnız tarixilik deyil, yüksək bədii sənətkarlıq baxımından da diqqətçəkicidir. Belə ki, ədib Tehrana gəlişini, görüş haqqında təəssüratlarını, siyasi xadim kimi özü üçün heç bir mühafizə təhlükəsizlik tədbirlərinin görülməməsini və şəhərin təsvirini peşəkarlıqla realist biçimdə oxucuya təqdim edir. Əsərdə oxuyuruq: "*...Mən Tehrana təyyarə ilə gələndə görüşün təşkilindən razı qalmadım. Britaniya nümayəndəsi məni öz avtomobilində qarşıladı və biz aerodromdan diplomatik nümayəndəliyimizə yola düşdük. Biz şəhərə təxminən 3 mil getdiyimiz zaman hər 50 yarddan bir fars atlı patrulları yerləşdirilmişdi. Hər hansı qəsdçinin təcavüzündən güvənli deyildim. Tapança və ya bomba ilə silahlanmış iki və ya üç süi-qəsdçinin olması ehtimalı üçün heç bir tədbir görülməmişdi"* [7, c. 5, s.209 - 210]. Bunun əksinə olaraq ədibin təhkiyəsində Amerika təhlükəsizlik xidməti tərəfindən prezidentin müdafiəsinin daha güvənli, zirehli texnikanın müşayiəti ilə təşkil olunduğu vurğulanır. Memuarlarında ədib təbiət lövhələrinə də diqqət yetirərək ingilis nümayəndəliyinin binasını əhatə edən bağları, Tehranın küçələrini də ədəbi - bədii sözün gücü ilə diqqətə çatdırır. Bütün bunlar ədibin yazıçı kimi bədii lövhələr yaratmaq istedadı ilə bağlıdır. Sözügedən fəsildə müəllif təhkiyəsinin diqqəti cəlb edən məqamlarından biri tarixi həqiqətin bugünümüzə çatdırılması üçün əhəmiyyətli olan və Tehran konrfansının tarixi təsvirində elmi - tarixi fikirdə xüsusi yer almayan siyasi xadimlərin həyatına ediləcək qəsdin qarşısının alınması məqsədilə sovet səfirliyinin məsləhəti ilə konfrans məkanının dəyişdirilməsidir.

## Ədəbiyyat


1. Sultanov Ç. (2016), Bakı nefti dünya şahmat taxtasında. 1939-1945-ci illər (rus dilindən tərcümə), Bakı: TEAS Press Nəşriyyat evi, 564 s.
2. Гасанлы Дж. (2008), СССР – Турсия: От нейтралитета к холодной войне (1939 – 1953), Москва: Центр Пропогонды, 663 с.
3. Жуков Г.К. (1986), Воспоминания и размышления. [В 3-х т]. Москва: Изд-во Агентства печати Новости, т.3, 351 с.
4. Степанов И.В. (2006), Идеология и практика Британского милитаризма в конце ЧЖЧ – начале ВВ вв: Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. Самара, 22 с.
5. Черчилль У.С. (2017), Вторая мировая война: [В 3 кн. Кн.1]. М: Альпина нон – фикши, с. 1- 2, 635 с.
6. Черчилль У.С. (2017), Вторая мировая война: [В 3 кн. Кн.2], М: Альпина нон – фикши, с 3 -4, 735 с.
7. Черчилль У.С. (2017), Вторая мировая война: [В 3 кн. Кн.3], М: Альпина нон – фикши, с. 5-6, 750 с.
8. Шестаков, В.П. (2011), Уинстон Черчилль: интеллектуалный портрет, М: Форум, 207 с.
9. Churchill, Winston. (2018), The River War. An Historical Account of the Reconquest of the Soudan. Published by Forgotten Books, 350 p.